**10.05.2022: xəbər**

**Khazar University appointed as a partner university of SOFAZ's "Graduate Analyst" internship program**

The State Oil Fund of the Republic of Azerbaijan (SOFAZ) has launched another pilot program. As part of "Graduate Analyst" internship program, information and registration activities have been started in collaboration with partner universities.

Thus, according to the one-month "Graduate Analyst" program, the last year undergraduate and graduate students, as well as 2021 university graduates were admitted to the internship program based on group interview sessions, and throughout the program in June 2022, they will have the opportunity to gain practical knowledge in relevant fields by working on real-life assignments in one of the Fund's Departments of Investment, Risk Management, Oil Contracts, Budget Forecasting and Projects, Accounts, Security, Human Resources and Law.

Taking into account the fact that SOFAZ's activities are mainly financial and analytical and the business nature of the departments, in the internship program, four educational institutions - Azerbaijan State Economic University, ADA University, Khazar University and Azerbaijan-French University - have been identified as partner universities. The process of registration and selection of graduates is carried out on the basis of cooperation and collaboration with these universities. Information on the results and accountability of the internship program will be posted on the official pages of the Foundation.

On May 6, 2022, AZERTAC and other information portals published news on this issue.

https://azertag.az/xeber/Dovlet_Neft_Fondu_novbeti_tecrube_proqramina_start_verib-2124527

**“Xəzər” ARDNF-nin “Təhlilçi məzun” təcrübə proqramının partnyor universiteti müəyyən olunub**

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) növbəti təcrübə proqramına start verib. “Təhlilçi məzun” (Graduate Analyst) təcrübə proqramı çərçivəsində partnyor universitetlərlə işbirliyi əsasında məlumatlandırma və qeydiyyat işlərinə başlanılıb.

Belə ki, bir aylıq “Təhlilçi məzun” proqramına əsasən, sonuncu kurs bakalavr və magistratura tələbələri, həmçinin 2021-ci il universitet məzunları qrup müsahibə sessiyası əsasında təcrübə proqramına qəbul olunaraq, 2022-ci ilin iyun ayı boyu proqram çərçivəsində Fondun İnvestisiya, Risklərin idarə edilməsi, Neft kontraktları, Büdcə proqnozlaşdırma və layihələr, Hesablaşmalar, Təhlükəsizlik, İnsan resursları və Hüquq departamentlərindən birində real iş mühitində, əyani tapşırıqlar üzərində işləməklə müvafiq sahələrdə praktik biliklər qazanmaq imkanı əldə edəcəklər.

ARDNF-nin fəaliyyət istiqamətinin əsasən maliyyə və analitik düşüncəyönümlü olmasını və təcrübə proqramında iştirak edən departamentlərin biznes özəlliyini nəzərə alaraq, proqram çərçivəsində dörd təhsil ocağı - Azərbaycan Dövlət İqtisad Universiteti, ADA Universiteti, Xəzər Universiteti və Azərbaycan-Fransız Universiteti partnyor universitetlər müəyyən olunub. Məzun təcrübəçilərin qeydiyyat və seçim prosesi bu universitetlərlə əməkdaşlıq və iş birliyi əsasında həyata keçirilir.

Təcrübə proqramının yekunları və hesabatlılığı barədə məlumatlar Fondun rəsmi səhifələrində yerləşdiriləcək.

2022-ci il mayın 6-da AZƏRTAC və digər informasiya portalları bu barədə xəbər yayımlamışdır.

https://azertag.az/xeber/Dovlet_Neft_Fondu_novbeti_tecrube_proqramina_start_verib-2124527